Bakı şəhəri № 1/12 23 may 2012-ci il

Media Hüququ İnstitutu tərəfindən hazırlanmış "Azərbaycan Respublikası Auditorlar Palatasının www.audit.gov.az domen adlı İnternet saytının monitorinqinin yekunu" üzrə İcmalı və həmin saytın fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Tövsiyələri nəzərə alaraq Auditorlar Palatasının internet səhifəsinin yaxşılaşdırılması və mövcud problemlərin aradan qaldarılması üzrə tədbirlərin həyata keçirilməsi barədə

Media Hüququ İnstitutu tərəfindən hazırlanmış "Azərbaycan Respublikası Auditorlar Palatasının www.audit.gov.az domen adlı İnternet saytının monitorinqinin yekunu" üzrə İcmalı və həmin saytın fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Tövsiyələri nəzərə alaraq Auditorlar Palatasının internet səhifəsinin vəziyyətinin yaxşılaşdırılması və mövcud problemlərin aradan qaldarılması, şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, bu sahədə beynəlxalq və yerli qabaqcıl təcrübənin tətbiqi, informasiya və kommunikasiya texnologiyalarından daha da geniş istifadə olunması istiqamətində Palatanın internet səhifəsinin səviyyəsinin yüksəldilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Auditorlar Palatasının internet səhifəsinin strukturunda və saytın istifadəsi qaydasında aşağıdakı əlavə və dəyişikliklər edilməsi məqsədəmüvafiq hesab edilsin:

1.1 Sədrin müşaviri A.Kərimova tapşırılsın ki, strukturun "Haqqımızda" bölməsinin "Rəhbərlik" alt bölməsində bir həftə müddətində Auditorlar Palatasının rəhbərliyi haqqında bioqrafik bilgilərin hazırlanıb yerləşdirilməsini təmin etsin;

1.2 Aparatın rəhbəri Q.Bayramova və sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, strukturun "Əlaqə" bölməsində on gün müddətində "Xəritə" alt bölməsinin yaradılmasını və orada Palatanın ünvanının marşrut və sxeminin, Palataya müxtəlif istiqamətlərdən gələn ictimai nəqliyyat barədə məlumatın yerləşdirilməsini təmin etsinlər;

1.3 Aparatın rəhbəri Q.Bayramova və sədrin müşaviri A.Kərimova tapşırılsın ki, strukturun "Haqqımızda" bölməsində "Palatanın strukturu" alt bölməsində iki həftə müddətində struktur bölmə rəhbərlərinə dair bilgilərin və struktur bölmələrin Əsasnamələrinin yerləşdirilməsini təmin etsinlər;

1.4 Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, strukturun "Qanunvericilik" bölməsinin "Palatanın normativ-hüquqi sənədləri" alt bölməsində zəruri hallarda norma (normativ sənəd) yaratma fəaliyyəti barədə bilgilərin yerləşdirilməsini təmin etsin;

1.5 Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, strukturun "Haqqımızda" bölməsinin "Palatanın fəaliyyəti" alt bölməsində müntəzəm olaraq Palata tərəfindən həyata keçirilən proqram və tədbirlər barədə operativ məlumatın yerləşdirilməsini təmin etsin;

1.6 Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, Palatanın müvafiq idarələri ilə birlikdə (M.Abbasov, M.Hacıyev, S.Gülməmmədov, V.Rəhimov) strukturun "İctimayyətlə əlaqə" bölməsində əlavə xidmətlər, sual-cavab üçün telefon nömrəsi və xidmətlərdən istifadə qaydaları haqqında məlumatın yerləşdirilməsi təmin edilsin;

1.7 Aparatın rəhbəri Q.Bayramova və şəxsi heyət üzrə menecer İ.Məmmədovaya tapşırılsın ki, strukturun "Haqqımızda" bölməsinin "Biz kimik" alt bölməsində zəruri hallarda müvafiq məlumatın (vakant yerləri, tələb olunan ali təhsil və təcrübə, işçilərin orta əmək haqqı və sair) yerləşdirilməsini təmin etsinlər;

1.8 Aparatın rəhbəri Q.Bayramova və sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, bir həftə müddətində strukturun ana səhifəsində və digər bölmələrdə istifadəçilərin göstərilməsini və sayta abunə imkanın daxil edilməsini təmin etsinlər.

2 Aparatın rəhbəri Q.Bayramova və sədrin müşaviri A.Kərimova tapşırılsın ki, Auditorlar Palatası Şurasının "Auditorlar Palatasının fəaliyyətini əks etdirən internet səhifəsinin vəziyyəti barədə" 2012-ci il 25 aprel tarixli 231/3 saylı qərarının icrasının təmin edilməsinə nəzarəti və bu qərarın icrasını həyata keçirsinlər.

3. Aparatın rəhbəri Q.Bayramova tapşırılsın ki, bu sərəncamın Palatanın internet saytında yerləşdirilməsini təmin etsin.

4. Sərəncamın icrasına nəzarət Auditorlar Palatası sədrinin müavini F.İsmayılova həvalə edisin.

**PALATANIN SƏDRİ** **V.NOVRUZOV**